**Bərdə, Tərtər və Ağdam rayonlarında aparılmış fitosanitar monitorinqlərə dair məlumat (31 may 2023)**

Milli Monitorinq Planı çərçivəsində Agentlik əməkdaşları tərəfindən Bərdə, Tərtər və Ağdam rayonlarında yerləşən bitkiçilik məhsullarının ilkin istehsalı təsərrüfatlarında – qarışıq meyvə bağlarında (nektarin, gilas, ərik, badam), habelə pomidor istixanalarında fitosanitar müşahidələr aparılıb. Monitorinqlər zamanı nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müxtəlif virus, göbələk və bakteriya mənşəli bitki xəstəliklərinə, həmçinin zərərvericilərə görə müayinələrə cəlb olunub. Müayinələr nəticəsində karantin tətbiq edilən zərərli orqanizm aşkarlanmayıb.

Bununla yanaşı, tumlu və çəyirdəkli meyvə bağlarında şaftalı meyvəyeyəninin (*Carposina niponensis*), Aralıq dənizi meyvə milçəyinin *(Ceratitis capitata)* və qərb çiçək tripsinin *(Frankliniella occidentalis),* pomidor istehsalı təsərrüfatlarında isə pomidor lağımlayıcı güvəsinin *(Tuta absoluta)* və qərb çiçək tripsinin *(Frankliniella occidentalis)* mövcudluğunu müəyyənləşdirmək məqsədilə feromon tələlər asılıb. Təsərrüfat sahiblərinə meyvə bağlarının və pomidor bitkisinin əsas zərərvericiləri və xəstəlikləri, onlara qarşı mübarizə üsulları, o cümlədən pestisidlərlə işləyən zaman təhlükəsizlik qaydalarına əməl edilməsi ilə bağlı məlumatlar verilib.